**ƏSƏDULLAYEV SEYFULLA QÜDRƏT OĞLU**
**(1924-2011)**
**Ədəbiyyatşünas**

1924-cü ildə anadan olmuşdur. 1942-1945-ci illərdə Böyük Vətən müharibəsində iştirak etmişdir. 1947-1949-cu illərdə Bakı Slavyan Uni-versitetində təhsil almışdır. 1951-ci ildə ADPU-nu fərqlənmə diplomu ilə bitirmişdir. 1956-1959-cu illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetində Filologiya fakültəsinin Rus sovet ədəbiyyatı tarixi kafedrasının aspirantı olmuşdur. 1959-1966-cı illərdə Azərbaycan Dillər İnstitutunda müəllim, baş müəllim, dosent, dekan müavini, fakültə dekanı vəzifələrində çalışmışdır. 1959-cu ildə namizədlik, 1970-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 1971-ci ildə professor elmi adı almışdır.
1966-cı ildən BDU-da kafedra müdiri vəzifəsində işləmişdir (Rus ədəbiyyatı tarixi kafedrası (1967-1984); Müasir rus ədəbiyyatı kafedrası (1984-2011). Azərbaycan Yazıçılar Birliyinin, Beynəlxalq Ədəbi Tənqidçilər İttifaqının üzvü olmuşdur.
O, rus ədəbiyyatı, ədəbiyyat nəzəriyyəsi və rus-Azərbaycan ədəbi əlaqələrini tədqiq etmişdir.
20 monoqrafiya, 2 kitab və 500-dən artıq ədəbi-tənqidi məqalənin müəllifidir. Rəhbərliyi ilə 26 elmlər namizədi, 11 elmlər doktoru hazırlanmışdır. Əməkdar elm xadimi adına və "Şöhrət" ordeninə layiq görülmüşdür.